# Əlvida bağça, salam məktəb

Hər il rayonumuzun uşaq bağçalarında ənənəvi olaraq «Əlvida bağça, salam məktəb» başlığı altında tədbir keçirilir. Bu il də yenicə məktəbə ayaq açaraq körpələrin tədbiri şəhər 3 saylı uşaq bağçasında baş tutdu. Tədbirdə şəhər uşaq bağçaları ilə birlikdə Bum, Nic, Vəndam qəsəbə, Nohurqışlaq, Tüntül, Böyük Əmili, Xırxatala, Soltannuxa, Zalam, Zarağan kənd bağçalarının kollektivləri də iştirak edirdilər.



Tədbiri 3 saylı uşaq bağçasının musiqi müəllimi Lalə Kərimova açdı. Şəhər 2 saylı uşaq bağçasının müdiri Səadət Kərimova, 4 saylı uşaq bağçasının müəllimi Nəcibə Tağıyeva, Bum qəsəbə uşaq bağçasından Rahilə Səddinova çıxış edərək birinci sinifə gedəcək körpələrə uğurlar aprzuladılar.

Valideynlərdən Saqibə Musayeva, Könül Şıxməmmədova, Aynurə Nəzirova və başqaları uşaqlarını böyük zəhmət və səbrlə məktəbə hazırlayan bağça kollektivlərinə təşəkkürlərini bildirdilər.

Körpələrin ifa etdikləri «Topla oyun», «Bağçalara vida», «Ağ çiçəyim» və sair rəqsləri, mahnıları, söylədikləri şeirlər alqışlarla qarşılandı.

Tədbirin sonunda şəhər 3 saylı uşaq bağçasının müdiri Natəvan Əfəndiyeva birinci sinifə gedəcək körpələrə təhsildə, həyatda uğurlar arzuladı, valideynləri təbrik etdi.

Tədbir xoş əhval-ruhiyyə ilə başa çatdı.

**Səhrab UMUYEV,**
**«Qəbələ»**

# Qurban bayramı keçirilmişdir

Qurbankəsmə mərasiminin tarixi qədim dövrlərə gedib çıxır. Hələ səmavi dinlərdən öncə də dünya xalqları bu ayini müxtəlif cür icra etmişlər. Sonralar gələn hər üç səmavi dində- iudaizm, xristianlıq və islamda bu və ya digər formada qurbankəsmə ayini var. İslamin bərqərar etdiyi Qurban bayramı isə bəşəriyyətin həyatında yeni səhifə açdı. Allahın yaratdığı ən kamil məxluqa—insana qarşı vəhşi münasibətə, onun qurban edilməsinə son qoydu.

Qurban bayramı müsəlman dünyasında əsl təntənəyə çevrilir, insanlara birlik, həmrəylik, şəfqət, xeyirxahlıq duyğuları aşılayır. Müsəlmanlar bir-birinə daha yaxın, daha məhrəm, daha mehriban olurlar.

Qəbələ rayonunda da Qurban bayramı yüksək səviyyədə qeyd olundu. Şəhərin mərkəzindəki cümə məscidində bayram namazı qılındıqdan sonra imkanlı şəxslərin məscid həyətinə gətirdiyi heyvanlar dini qaydalara uyğun kəsilərək orada olan və məscidə gəlmək imkanı olmayan aztəminatlı ailələrə, tənha yaşayanlara, ehtiyacı olanlara paylandı.

**«Qəbələ»**

# 18 sentyabr Milli Musiqi Günüdür

Sentyabrın 18-də Azərbaycan xalqının dahi oğlu, musiqi mədəniyyətimizin korifeyi Üzeyir Hacıbəyovun doğum günüdür. Həmin gün, sadəcə, musiqisevərlərin yox, həm də xalqımızın bayramıdır. Böyük bəstəkarın ad gününün bayram kimi qeyd edilməsi ənənəsinin əsasını maestro Niyazi qoyub. Görkəmli bəstəkar və dirijor Niyazi Üzeyir bəyin vəfatından sonra hər il bu günü qeyd edərmiş. 1995-ci ildə isə ümummilli lider Heydər Əliyevin fərmanı ilə dahi bəstəkarın anadan olmasının 110 illik yubileyi ərəfəsində 18 sentyabrın Milli Musiqi Günü kimi qeyd olunması qərara alınıb.

Üzeyir Hacıbəyov 1908-ci il yanvarın 18-də Bakıda Hacı Zeynalabdin Tağıyevin teatrında tamaşaya qoyulan "Leyli və Məcnun" operası ilə təkcə Azərbaycanda deyil, bütün müsəlman Şərqində opera sənətinin əsasını qoyub. O, həm də Azərbaycanda musiqili komediya janrının yaradıcısıdır. Üzeyir Hacıbəyovun "Ər və arvad", "O olmasın, bu olsun", "Arşın mal alan" musiqili komediyalarında o dövr Azərbaycan məişəti, xalq adət və ənənələri öz əksini tapıb.

Üzeyir Hacıbəyov milli musiqi xəzinəsinə yeni janr və formatlarla zənginləşdirən bir sıra əsərlər, o cümlədən Azərbaycan peşəkar musiqi sənətinin şah əsəri, dünya musiqi xəzinəsinin incilərindən olan dahiyanə "Koroğlu" operasını bəstələyib. O, həm Azərbaycan Xalq Cümhuriyyəti, həm də yeni Azərbaycan Respublikasının Dövlət Himnlərinin musiqisinin müəllifidir.

Üzeyir bəy elmi musiqişünaslığın, musiqi təhsilinin əsasını qoyub və ömrünün sonunadək musiqi mədəniyyətinin inkişafına rəhbərlik edib. Dahi bəstəkarın yaratdığı musiqi inciləri dünya şöhrəti qazanıb və dünya musiqi mədəniyyətinin qızıl fonduna daxil olub. Görkəmli musiqi xadimləri onu "professional Şərq musiqisinin atası" adlandırıblar. Azərbaycan və dünya musiqi mədəniyyətinin inkişafında misilsiz xidmətləri olmuş Üzeyir Hacıbəyovun anadan olmasının 100 illik yubileyi YUNESKO-nun qərarı ilə beynəlxalq miqyasda qeyd olunub.

**"Qəbələ"**

«QƏBƏLƏ» qəzetinin reklam xidməti
205-19-14, 205-15-56

## İdman xəbərləri

# Əvəzedicilərdən 4-cü qələbə

"Qəbələ" – "Zirə" – 1:0
Ülvi İsgəndərov, 10

Əvəzedicilərin çempionatında IV turun növbəti qarşılaşmaları keçirilib. Çempionatın liderləri Qəbələdə üz-üzə gəlib. İlk üç turda qələbə qazanan "Zirə" və "Qəbələ" sonuncuların meydanında görüşüb. Qarşılaşmanın taleyini bir qol həll edib. Ülvi İsgəndərovun 10-cu dəqiqədə vurduğu top "qırmızı-qaralar"a 3 xal qazandırıb. Bununla da Elmar Baxşıyevin yetirmələri mövsümün startında ardıcıl 4-cü qələbəsini əldə edib.

Beləliklə, xal hesabını 12-yə çatdıran "Qəbələ" əvəzedicilərin yarışında vahid lider olub.

# «Qəbələ»nin döyüşçüləri «MMA Fighting Series» yarışlarında uğurla çıxış ediblər

"MMA (qarışıq döyüş növləri) Fighting Series" yarışları çərçivəsində növbəti döyüşlər keçirilib.

AZƏRTAC xəbər verir ki, "Qafqaz Baku Sport" hotelindəki üçüncü yarışda 15 döyüş təşkil olunub.

"Azerbaijan Fight Club", "Qəbələ" idman klubu və "TT Fight Club"un dəstəyi ilə keçirilən turnirdə Azərbaycanla yanaşı, Rusiya, İran və Gürcüstan idmançıları da qüvvələrini sınayıblar.

Turnirdə "Qəbələ"nin 4 təmsilçisi rinqə çıxıb. Onlardan üçü növbəti qələbəsini qazanıb. Bəxtiyar Abbasov (93 kq) iranlı Əli Əhmədvəndlə görüşdə qalib gəlib. Birinci raundda rəqibini nokauta salan idmançımıza 1 dəqiqə 50 saniyə kifayət edib. Yarışda 70 kiloqram çəki dərəcəsində qüvvəsini sınayan Nəriman Abbasov da qələbəni ilk raundda əldə edib. O, iranlı Səccao Məhəmədini 1 dəqiqə 45 saniyəyə üstələyib. Hüseyn Əliyev (77 kq) isə gürcüstanlı Aslan Qorqişvilidən güclü olub. Döyüşçü iki raund davam edən döyüşdə hakimlərin rəyi ilə qalib gəlib.

# «Qəbələ» ECA-nın üzvüdür

"Qəbələ" Avropa Klublar Assosiasiyasına (ECA) üzv qəbul edilib. Klubumuz 2017/18 mövsümündə Azərbaycanın qurumdakı üç təmsilçisindən biri olacaq.

"Neftçi" və "Qarabağ"ın tamhüquqlu üzv olduğu ECA-ya yeni daxil olan "Qəbələ" assosiativ statusu daşıyacaq. Ümumilikdə isə 53 ölkədən 220 klubu birləşdirən qurumda 10 yeni komanda var. Bunlar "Qəbələ", "Leypsiq" (Almaniya), "Latsio" (İtaliya), "La Fiorita" (San-Marino), "Kayrat" (Qazaxıstan), "Kalyu" (Estoniya), "Vikinqur" (Farer adaları), "Krasnodar" (Rusiya), "Botev" (Bolqarıstan) və AEK (Kipr) klublarıdır. Yeni üzvlər, o cümlədən "Qəbələ" də İsveçrənin Cenevrə şəhərində təşkil olunan ECA-nın XIX Baş Assambleyasına qatılıb. Bu gün başlayan tədbirdə həmin 10 klub digər üzvlərə təqdim olunub.Tədbirdə klubumuzu baş menecer Zaur Əzizov təmsil edir.

## İTMİŞDİR

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 15 dekabr 1997-ci il tarixli 27 saylı qərarı ilə Soltannuxa kənd sakini **Mikayılov Mərdan Nuru oğluna** verilmiş JN seriyalı 136 G nömrəli (kod 40602038) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 fevral 2001-ci il tarixli 03 saylı qərarı ilə Qəbələ şəhər sakini **Babayeva Səkinə Qurban qızına və ailə üzvlərinə** verilmiş JN seriyalı 562 F nömrəli (kod 40601004) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat komissiyasının 15 may 1998-ci il tarixli 09 nömrəli qərarı ilə İmamlı kənd sakini **Kərimov Vaqif Müslüm oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 0018 nömrəli (kod 40613038) **torpağa mülkiyyət hüququna dair dövlət akt** itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Bunud kənd tam orta məktəbin müəllim və şagird kollektivi məktəbin şagirdi
**HƏŞİMLİ SƏNAN SƏFA OĞLUNUN**
faciəli vəfatı ilə əlaqədar yaxınlarının kədərlərinə şərik olur və dərin hüznlə başsağlığı verir.

Məsul katib
Qüdrət Səmədov

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: news@qebele-ih.gov.az
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
*Dizayner Rais Rəşidov*
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.